Gəlimli-gedimli, son ucu ölümlü dünyamızın ağusunda yaşadığı ömür payı ilə əbədiyyətə qovuşan insanlar tarixin yaddaşında unudulmaz bir varlığa çevrilərək daim xatırlanır. Bu gün xatırlanıb yad edilən belə insanlardan bizi də öz nadir istedadı ilə başqalarından fərqlənən Azərbaycan ədəbiyyatına yeni ruhda ab-hava gətirən xalqımızın sevimli şairi M.Müşfiqdir.

Vətən üçün yaşayan, Vətən üçün ölən şair...

Yazıb-yaratmaq, qalaq-qalaq kitablar müəllifi olmaq xatirinə yazmayan Mikayıl Müşfiq "Vətən üçün yaşadı, Vətən üçün öldü". Elə bu başlıq altında da bu yaxınlarda Saatlı Rayon Mərkəzi Kitabxanasının oxu zalında şairin 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi. Müşfiq anıldı, Müşfiq yad edildi:

Ah mən günü-gündən bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə ölləşən,
Dostdan, aşinadan necə əl çəkim?...

Şairin bu misraları ilə başlanan tədbir istər-istəməz iştirakçıların qəlbində qüssə dolu hiss və duyğular yaratdı. Cəmi 29 il ömür yaşayan Müşfiq 11 illik yaradıcılığı ilə əbədiyyətə qarışdı. Əbədiyyətə qarışanları isə nə xalq unudur, nə də ki, dövlət. Necə ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev M.Müşfiqin 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar sərəncam imzalamışdır. Verilən bu sərəncam haqqında Saatlı Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Akif İslamov tədbir iştirakçılarına məlumat verdi. Tədbiri davam etdirən MKS-nin direktoru Sakit Bağırov prezident İlham Əliyevin kitabxanaların fəaliyyətinin daha da yaxşılaşdırılması barədə vermiş olduğu fərmandan irəli gələn məsələlər haqqında söhbət açaraq bildirdi: "Dünya siyasətçiləri içərisində sayılıb-seçilən mərhum prezident Heydər Əliyevin xalq, millət üçün müqəddəs yer, mənəviyyat, bilik və zəka mənbəyi adlandırdığı kitabxanalara bu gün prezident İlham Əliyev xüsusi diqqət və qayğı göstərərək imzaladığı fərman, heç şübhəsiz ki, yaxın vaxtlarda reallaşacaq, öz həllini tapacaqdır. Çünki yaxşı şərait, yaxşı iş deməkdir...

Ölkə başçısı İlham Əliyevin sənət adamlarını qiymətləndirməsi, onların yubileylərinin keçirilməsinə dair sərəncamlar həqiqətən də biz kitabxana işçiləri tərəfindən məmnunluqla qarşılanır".

Yubilyarın həyat və yaradıcılığına həsr olunmuş məruzəni Saatlı Rayon MKS-nin direktor müavini Arif Mirzəyev tamamladıqdan sonra söz tədbirə dəvət olunmuş qonaqlara verildi. Müşfiqin səmimi insan, vətəndaş şair olması haqqında Saatlı rayonunda dərc olunan "Dönüş" qəzetinin baş redaktoru, "Qızıl qələm" mükafatı laureatı, Respublikanın əməkdar mədəniyyət işçisi, Kərbəla, Hacı, Qaçay Əhmədov, Müşfiq poeziyasında naxışlanmış lirik şerlərin hiss və duyğulara göstərdiyi təhsil gücünün bəzi xüsusiyyətləri haqqında bir neçə kitab müəllifi, AYB-nin üzvü, şair-publisist Qalib Bayram Müşfiqin çoşarətli və uzaqgörən şair olması haqqında AYB-nin üzvü, şair, yazıçı Qənbər Əhmədli, Müşfiq poeziyasında həyat həqiqəti və romantikası haqqında Saatlı şəhər S.Vurğun adına 1 saylı orta məktəbin müəllimi Sabir Tağıyev, Müşfiqin ürəyə, dilə-dodağa yatan nəğmə çalğılı şerlərinə bəstələnən musiqi haqqında Saatlı şəhər Bülbül adına 7 illik uşaq musiqi məktəbinin direktoru Hacı Kamal müəllim Gülüşov və digər qonaqlar maraqlı çıxışlar etmişlər. Poetik düşüncə tərzinə görə başqalarından tamamilə fərqlənən Müşfiq yaradıcılığının ədəbi mühitimizə gətirdiyi yeniliklərdən söhbət açan sarıcalar orta məktəbinin müəllimləri Svetlana xanım Musayevanın alovlu, qəlbləri riqqətə gətirən çıxışı xüsusilə diqqəti cəlb edərək mübahisə doğurmuş, maraqlı suallar ətrafında aydınlaşaraq cavablandırılmışdır ki, bu da tədbir iştirakçıları tərəfindən maraqla dinlənilmişdir.

Sarıcalar orta məktəbinin müəllimlərindən - Svetlana Musayevanın, Fəxriyyə Babayevanın, Məhəmməd Həsənovun, Elnurə Həsənovanın, şagirdlərdən - Gülbəniz Bağırovanın, Bəyim Ağayevanın, Gülnar Mehdiyevanın, Asif Məhərrəmovun, Sürayyə Mənsimovanın, Svetlana Quliyevanın, Şəbnəm Məmmədovanın, Naibə Nəsirovanın, Gülsənəm Abbasovanın, Aysel Qurbanovanın, Gülşən Əliyevanın birgə hazırladıqları ədəbi-bədii kompozisiya diqqətlə dinlənilərək alqışlarla qarşılanmışdır.

Keçirilən ədəbi-bədii gecədə Saatlı Rayon Mədəniyyət və Turizm şöbəsinin baş mühasibi Rahim Hüseynov, rayon Ziyalılar Cəmiyyətinin sədri Heydər Heydərov və Saatlı RİH başçısının köməkçisi Adil Paşayev də iştirak etmiş və sözlərini söyləmişlər.

Sazlı-sözlü, nəğmə çalğılı tədbir musiqi sədaları altında sona yetmişdir.

İbrahim Xıdır
şair